UOT 378.

***Xalidə Sidqəli qızı Həsənova,***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*elmlər doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TƏHSİLİN HUMANİSTLƏŞDİRİLMƏSİ VƏ TƏLƏBƏLƏRİN MƏNƏVİ İNKİŞAFI MƏSƏLƏLƏRİ: MÖVCUD ƏDƏBİYYATIN TƏHLİLİ

***Халида Сидгели гызы Гасанова,***
*доктор философии по педагогике, диссертант по программе доктора наук*
*Азербайджанский Государственный Педагогический Университет*

# ГУМАНИЗАЦИЯ ОБРАЗОВАНИЯ И НРАВСТВЕННОЕ РАЗВИТИЕ СТУДЕНТОВ: АНАЛИЗ СООТВЕТСТВУЮЩЕЙ ЛИТЕРАТУРЫ

***Khalida Siddelie Ghassanova,***
*doctor of philosophy in pedagogy, doctorial student in the proqramme of doctor pedagogical sciences*
*Azerbaijan State Pedagogical University*

# HUMANIZATION OF EDUCATION AND STUDENTS' MORAL DEVELOPMENT: AN ANALYSIS OF RELEVANT LITERATURE

**Xülasə:** Humanistləşdirmə müasir termindir, problem isə heç də yeni deyildir. Təhsilin humanistləşdirilməsi problemi bəşəriyyətin ictimai şüurunda prioritet, Azərbaycanda təhsil islahatında isə əsas prinsip hesab olunur. Təhsilin humanistləşdirilməsini tədqiqatçıların əksəriyyəti insanın qabiliyyətlərinin üzə çıxarılmasına və inkişaf etdirilməsinə, onun özünüreallaşdırılmasına yönələn şərait kimi başa düşür. Bu işin əsasında isə, insana hörmət və inam, onun həyat fəaliyyətinin məqsədini, məzmununu, təşkilini və vasitələrini, həmçinin ətrafdakı insanlarla qarşılıqlı münasibətlərinin xarakterini müəyyənləşdirmək dayanır.
***Açar sözlər.*** *Təhsilin humanistləşdirilməsi, ali təhsilin humanistləşdirilməsi, mənəvi inkişafı, tələbələrin mənəvi inkişafı, mövcud ədəbiyyat, mövcud ədəbiyyatın təhlili, mənəvi tərbiyə*

**Резюме:** Гуманизация - термин современный, но проблема далеко не нова. Проблема гуманизации образования является приоритетной в общественном сознании человечества, является и основным принципом реформирования образования в Азербайджане.

Гуманизация образования большинством исследователей понимается как создание условий, направленных на раскрытие и развитие способностей человека, его позитивную самореализацию, в основе чего лежит уважение к человеку и вера в него, определение целей, содержания, организации и средств его жизнедеятельности, характер взаимодействия с окружающими людьми.
***Ключевые слова:*** *Гуманизация образования, гуманизация высшего образования, нравственное развитие, нравственное развитие студентов, соответствующая литература, анализ соответствующей литературы*

**Summary:** Humanization is a modern term, but the problem is far from new. The problem of humanization of education is a priority in the public consciousness of humanity. Humanization of education, being one of the world tendencies, is also the main principle of reforming education in Azerbaijan.

The humanization of education by most researchers is understood as the creation of conditions aimed at the discovery and development of human abilities, its positive self-realization, which is based on respect for the person and faith in him, definition of goals, content, organization and means of his life, as well as the nature of interaction with others people.
***Keywords.*** *Humanization of education, humanization of higher education, moral development, moral development of students, relevant literature, analysis of relevant literature*

Cəmiyyətimizin günü-gündən inkişaf etməsi, ölkəmizin dünyanın qabaqcıl dövlətləri sırasında layiqli yer tutması, yeni pedaqoji təfəkkürün tələbləri təhsilin və tərbiyə prosesinin humanistləşdirilməsini ön plana çəkir. Təhsilalanlarda, o cümlədən tələbələrin mənəvi keyfiyyətlərinin formalaşması qayğısına qalmaq, bu məqsədlə təlim prosesinin, mühazirə və seminar məşğələlərinin, eyni zamanda auditoriyadankənar tədbirlərin səmərəliliyinə nail olunması, milli tərbiyəyə, milli dəyərlərimizə əsaslanmaq mühüm tələb kimi qarşıda dayanır. Qabaqcıl ali təhsil müəssisələri öz fəaliyyətlərini bu istiqamətdə qururlar.

Şəxsiyyətin təşəkkülündə təhsil özünəməxsus rol oynayır, təlimin nəticəsi kimi meydana gəlir. Təlim prosesi öz növbəsində təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici kimi mühüm funksiyaları yerinə yetirir.

Professor A.O. Mehrabov "Müasir təhsilin konseptual problemləri" monoqrafiyasında yazırdı: “Təhsil açıq, özünü inkişaf etdirən sistem olmalıdır. İdarəetmə prosesində şəxsiyyətin inkişaf qanunları nəzərə alınmalıdır. Təhsil son nəticədə şəxsiyyətin sosiallaşmasının səmərəli təminatçısı olmalıdır. Bunun üçün isə çoxistiqamətli, bir-birindən kəskin fərqlənən modellər yox, vahid bir strateji xətt olmalıdır. Belə kəskin fərqlərin aradan qaldırılmasında "Kurikulum modelinə müraciət olunması onların bir məcraya gətirilməsinə, bir xətt üzrə qurulmasına imkan yaratmışdır" (1).

Məqalədə tədqiq etdiyimiz problemin mövcud ədəbiyyatda işlənmə səviyyəsi ilə maraqlandır.

Biz problemin aktuallığına bələd olmaq üçün dövlətin təhsil siyasətini nəzərdən keçirdik, təhsilə ilk növbədə təhsilə aid dövlət sənədləri ilə tanış olduq. Qeyd etmək lazımdır ki, dövlətimiz, hökumətimiz, Ölkə Prezidenti cənab İlham Əliyev, həmçinin Təhsil Nazirliyi təhsilimizin humanistləşdirilməsi və demokratikləşdirilməsini həmişə diqqət mərkəzində saxlayıblar və saxlayırlar.

“Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsində təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri öz ifadəsini tapmışdır. Həmin maddədə ilk növbədə humanistlik prinsipi diqqət mərkəzinə gətirilir. Daha sonra bu prinsiplə bilavasitə əlaqədar olan demokratiklik, bərabərlik, millilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, varislik, liberallaşma, inteqrasiya prinsiplərinə münasibət bildirilir. Təhsil haqqında qanunda humanistliyin mahiyyətinə aşağıdakı şəkildə aydınlıq gətirilir: “Humanistlik - milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul“.

Təhsil haqqında qanunun “Təhsilverənlərin hüquq və vəzifələri” adlanan 33-cü maddəsi də müəllimlərin, təhsil işçilərinin öz fəaliyyətlərində humanistləşdirmə və demokratiləşdirməni əsas götürmələri zəruri hesab edilir. Təhsilverənlərin aşağıdakı vəzifələri müəyyənləşdirilir:

“1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

2. təhsil proqramlarının mənimsənilməsini təmin etmək

3. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

4. şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

5. pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;

6. təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək” (2).

Tədqiqatlarımız zamanı Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” da nəzərdən keçirildi. Bu əhəmiyyətli sənəddə deyildiyi kimi, “Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək ba-zarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir” (3).

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın ayrı-ayrı maddələri ilə tanış olduq. “...Dövlət Strategiyası”nın 4-cü maddəsi “Təhsil sisteminin başlıca vəzifələri” adlanır. Bu maddədə təhsil sisteminin başlıca vəzifələrinə aşağıdakılar aid edilir:

“- ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

- məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

- milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq...” (3).

Yuxarıda sadalanan vəzifələr Azərbaycan təhsilinin humanistləşdirilməsi, eyni zamanda təhsilalanların, o cümlədən tələbə gənclərin mənəvi inkişafı, onların əxlaqının saflaşdırılması baxımından zəngin imkanlar açır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təhsil və tərbiyə proseslərinin təkmilləşdirilməsini, humanistləşdirilməsini və demokratikləşdirməsini təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin pedaqoji kollektivlər qarşısında mühüm tələb kimi, vacib vəzifə kimi irəli sürür.

Biz tədqiqat işlərini, ayrı-ayrı dissertasiyaları da tədqiq etdiyimiz problem baxımından araşdırdıq.

Yuxarıda qeyd etdiyimiz kimi, təhsilin humanistləşdirilməsi prinsipi təhsilin bərabərlik, millilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, varislik, liberallaşma, inteqrasiya prinsipləri, xüsusən isə demokratiklik prinsipi ilə qırılmaz tellərlə bağlıdır. L.X. Əliyevanın fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiə etdiyi “Təhsilin demokratikləşdirilməsi pedaqoji kadrların hazırlanmasının mühüm prinsipi kimi” (ali pedaqoji məktəblərin bakalavr pilləsinin materialları əsasında) mövzusunda dissertasiyası (4) haqqında danışılan prinsipin imkanlarına və nəzərə alınmasının vacibliyinə həsr olunmuşdur.

Dissertasiyada təhsilin demokratikləşdirilməsi üzrə işin mahiyyəti, məqsəd və vəzifələri müəyyənləşdirilmiş; elmi-pedaqoji və metodik ədəbiyyat; eyni zamanda ali məktəblərin proqram və dərslikləri problem baxımından öyrənilmiş və təhlil edilmişdir. Bundan başqa, ali məktəbdə pedaqoji proses, idarəetmənin demokratikləşdirilməsi məsələlərinə aydınlıq gətirilmiş, təhsilin demokratikləşdirilməsinin tələbələrin təlim keyfiyyətinə və tərbiyəlilik səviyyəsinə təsiri öyrənilmişdir.

Haqqında söz açılan tədqiqatın məqsədi təhsilin demokratikləşdirilməsi prinsipinin mahiyyətini izah etməkdən, ali pedaqoji təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasında demokratikləşdirilmə prinsipinin imkan və yollarını, təhsilin demokratikləşdirilməsinin tələbələrin təlim keyfiyyətinə və tərbiyəlilik səviyyəsinə təsirini və səmərəliliyini müəyyənləşdirməkdən, həmçinin faydalılığını əsaslandırmaqdan ibarət olmuşdur.

L.X. Əliyeva tədqiqatla bağlı bir sıra mühüm nəticələrə gəlmişdir. Onların bəzilərini diqqət mərkəzinə gətirək:

“1. Ölkəmizdə təhsilin demokratikləşdirilməsi və onun demokratik prinsiplər əsasında idarə olunması ictimai, siyasi, hüquqi, mənəvi məzmun kəsb edərək mühüm problem kimi pedaqoji ictimaiyyətin diqqətini cəlb edir.

2. Ali məktəbin demokratikləşdirilməsində avtoritar, bürokratik münasibətlər, formalizm halları yolverilməzdir. Bəzən ali məktəbdə demokratiya adı altında avtoritarlıq ziddiyyət təşkil edir. Pedaqoji prosesin təşkilində, müəllim-tələbə münasibətlərində, təlim prosesində, auditoriyadankənar tədbirlərdə, ali məktəbə rəhbərlik və onun idarə olunmasında demokratikləşdirmə prinsipi xüsusi yer tutmalıdır. Ali məktəb rəhbəri, pedaqoji kollektiv bilməlidir ki, əsas göstərici demokratikləşdirmə prinsipi əsas götürülməklə tələbələrin formalaşdırılması üçün hansı tədbirlərin həyata keçirilməsi deyil, həmin tədbirlərin müsbət və səmərəli nəticələr verməsidir (4, s. 142).

3. Demokratikləşdirmə prinsipinin ali məktəbdə təşəkkül tapıb formalaşmasına nail olmaq üçün bu prosesin pedaqoji əsasları aydın təsəvvür edilməlidir. Həmin pedaqoji əsaslar sırasında pedaqoji prosesin optimallaşdırılması, tər-

biyənin məlum prinsiplərindən səmərəli istifadə olunması və s. böyük rola malikdir.

4. Tələbələrin demokratik fikirli pedaqoji kadr kimi formalaşmasında demokratikləşdirmə prinsipinin səmərəsini artırmaq üçün pedaqoji kollektivin üzvləri və rəhbərlik onların səciyyəvi xüsusiyyətlərini nəzərə almalıdırlar. Tələbələrdə öz-özünü tərbiyələndirmə, demokratiya, azadlıq, bərabər hüquqluq, ləyaqət və şərəfini qorumaq, başqaların fikrinə hörmət bəsləmək və s. bu kimi müsbət keyfiyyətləri inkişaf etdirməkdə, demokratiyaya zidd olan mənfi keyfiyyətləri aradan qaldırmaqda maraq və tələbat yaradır.

5. Təhsilin demokratik prinsiplərə əsasən idarə olunması təlimin səmərəliyini artırır, ali məktəb rəhbərlərinin fəaliyyətini stimullaşdırır, müəllimlərin ən yeni metod və texnologiyalardan istifadə etmələrinə şərait yaradır, tələbələr də özünənəzarət və özünüqiymətləndirmə vərdişləri aşılayır və onları yeni-yeni biliklər qazanmağa sövq edir.

6. Demokratikləşdirmə prinsipi ali məktəbin həyatının təşkilinin hər bir sahəsində (idarəetmədə, rəhbərlikdə, pedaqoji prosesdə və s) həyata keçirilməlidir.

7. Yeni pedaqoji təfəkkürün, təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsi şəraitində demokratikləşdirmə prinsipinin tətbiqi xüsusən vacibdir

8. Demokratikləşdirmə prinsipini öz işində başlıca prinsiplərdən biri kimi götürən ali məktəb rəhbəri, prorektorlar, kafedra müdirləri, dekanlar, fənn müəllimləri, tələbə özünüidarə orqanları tələbə oğlan və qızların müstəqilliyinə, azad fikirliliyinə, bərabər hüquqluğuna, təşəbbüskarlığına, təşkilatçılığına və özfəaliyyətinə geniş meydan verirlər. Bu isə təlimin və tərbiyənin keyfiyyətini yüksəltməklə pedaqoji kadrların hazırlığının səmərəliliyinə şərait yaradır" (4, 143-144).

Gülşən Oqtay qızı Həsənovanın fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiə etdiyi "Təhsilin humanistləşdirilməsi pedaqoji kadr hazırlığının mühüm prinsipi kimi" mövzusunda dissertasiyası (5) bizim tədqiqat mövzumuzla bilavasitə bağlıdır.

Bu dissertasiyada araşdırılan məsələlər bunlardır: təhsilin humanistləşdirilməsi anlayışının mahiyyəti və humanistləşdirmənin ali məktəb həyatında rolu və yeri; problemin pedaqoji-psixoloji əsasları; problem baxımından mövcud ədəbiyyatın təhlili; problem baxımından ali məktəblərində mövcud vəziyyətin təhlili; ali məktəbin həyatında, tədris prosesində, auditoriyadankənar tədbirlərdə təhsilin humanistləşdirilməsi prinsipinin reallaşmasının imkan və yolları; ali məktəbin idarə olunmasında humanistləşdirmə prinsipinin nəzərə alınması.

Tədqiqat zamanı qarşıya aşağıdakı məqsəd qoyulmuşdur: ali məktəbin həyatında, eyni zamanda təlim prosesində və auditoriyadankənar tədbirlərdə, həm də ali təhsil müəssisəsinin idarə olunması işində təhsilin humanistləşdirilməsinin reallaşması imkanlarını və səmərəli yollarını müəyyənləşdirib sistemə salmaq.

Tədqiqatın elmi yeniliyi öz ifadəsini belə tapmışdır: təhsilin humanistləşdirilməsi pedaqoji kadr hazırlığının mühüm prinsipi kimi iş-lənilmiş, elmi əsaslarla sübuta yetirilmiş, ali məktəbin həyatında, tədris prosesində, auditoriyadankənar tədbirlərdə təhsilin humanistləşdirilməsi prinsipinin imkan və yolları müəyyənləşdirilmiş, pedaqoji kadr hazırlığı ilə bağlı praktik və elmi-metodik tövsiyələr hazırlanmışdır.

Tədqiqatla əlaqədar olaraq aşağıdakı nəticələr alınmışdır:

"1. Humanistləşdirmə təhsil sahəsində dövlət siyasətinin prinsiplərindən biridir. Azərbaycanda fasiləsiz təhsil sistemi bu prinsip əsasında həyata keçirilir. Təhsilin humanistləşdrilməsinin pedaqoji kadr hazırlığının mühüm prinsipi kimi qəbul edilməsi ali məktəbdə tədrisin keyfiyyətini yüksəldir.

2. Təhsilin humanistləşdirilməsi prinsipinin məzmunu aşağıdakı şəkildə ifadə oluna bilər:

- yetişən gənc nəslin öz şəxsi meylinə, arzusuna, niyyətinə uyğun gələn fənlərin öyrənilməsinə imkan verilməsi, müstəqil peşə seçməyə istiqamətləndirilməsinə xüsusi şəraitin yaradılması;

- müəllim-şagird, müəllim-tələbə münasibətlərində səmimi həmrəyliyin, sıx əməkdaşlığın, qarşılıqlı olmasının insanpərvərliyin, hörmət, ehtiram, yardım, mərhəmət və s. bu kimi normaların məqsədyönlü, planlı və mütəşəkkil tənzimlənməsi.

3. Dərsliklərin, dərs vəsaitlərinin tərtibi və onlardan istifadənin təşkili zamanı təhsilin hu-

manistləşdirilməsi prinsipinin gözlənilməsi tələbələrin idrak fəallığını artırır, bacarıqlı mütəxəssislər kimi formalaşmasına təminat verir, pedaqoji kadr hazırlığı işinin günün tələbləri səviyyəsinə yüksəldilməsinə şərait yaratmış olur.

4. Ali məktəbin idarə olunmasında, o cümlədən illik, aylıq və həftəlik iş planlarının hazırlanmasında, tədris-tərbiyə strukturlarına göstərişlərin verilməsində, Elmi Şuranın perspektiv planlarının, gündəlik məsələlərinin müəyyənləşdirilməsində bu prinsipin gözlənilməsi pedaqoji kadr hazırlığı işinin səmərəsini artırır.

5. Ali məktəblərin kafedra və dekanlıqlarının xətti ilə həyata keçirilən işlər zamanı təhsilin humanistləşdirilməsi prinsipinin əsas müddəaları gözlənildiyi təqdirdə pedaqoji kadr hazırlığında uğur qazanmaq mümkündür.

6. Ali məktəbin tədris-tərbiyə prosesində həyata keçirilən humanistləşdirmə işlərinin pedaqoji-psixoloji əsaslarının öyrənilməsi pedaqoji kadr hazırlığına düzgün istiqamət vermiş olur.

7. Tədris prosesində proqram materiallarının gücündən, didaktik materialların tətbiq edilməsindən, yeni pedaqoji texnologiyalardan təhsilin beynəlxalq normalarına uyğun istifadə edildikdə pedaqoji kadr hazırlığı işi humanistləşdirmə işini təmin etmiş olur.

8. Auditoriyadankənar tədbirlərin, o cümlədən gecələrin, görüşlərin, tələbə konfranslarının, elmi-tədqiqat işlərinə baxış-müsabiqələrin təşkili və keçirilməsi zamanı təhsilin humanistləşdirilməsi prinsipinin tətbiqi imkanlarından istifadə olunması pedaqoji kadr hazırlığının səmərəsini artırır.

9. Ali məktəbdə təhsilin humanistləşdirilməsi prinsipi üzrə işin reallaşdırılması bir tərəfdən pedaqoji proses üçün kadr hazırlığını təmin edirsə, digər tərəfdən həmin kadrların pedaqoji prosesə yönəldilməsinə istiqamət verir" (5).

Tədqiqatla bağlı müəllifin təklifləri bunlardır:

1. Pedaqogika, məktəb pedaqogikası, ali məktəb pedaqogikası dərsliklərinə "Humanistləşdirmənin pedaqoji əsasları", "Humanist yanaşmaların pedaqoji-psixoloji əsasları", "Humanistləşdirmə işinin təşkili yolları" adlı mövzuların daxil edilməsi yaxşı olardı.

2. Orta, orta ixtisas və ali məktəblərin tədris planlarına «İxtisasa giriş» fənni daxil edilərsə və həmin fənnə aid dərsliyin, dərs vəsaitinin fəsillərindən biri humanistləşdirməyə həsr edilərsə, bu çox faydalı olardı" (5).

A.L. Çernitskayanın dissertasiyası kulturologiya ixtisası üzrədir. "Ali təhsilin humanistləşdirilməsi: mahiyyəti və inkişafın perspektivləri"nə (6) həsr edilmişdir. Əsər fəlsəfə elmləri namizədi elmi dərəcəsi almaq üçün müdafiəyə təqdim olunmuşdu. Dissertasiya 5 yarımfəsli özündə birləşdirən 2 fəsildən ibarətdir. Birinci fəsil "Ali təhsilin humanistləşdirilməsi: mahiyyəti, quruluşu, funksiyaları" adlanır. Bu fəsildə ali təhsilin humanistləşdirilməsinin mahiyyət xarakteristikası; ali təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması; ali təhsilin humanistləşdirilməsinin quruluşu və funksiyaları kimi məsələlərinə münasibət bildirilir.

Dissertasiyanın "Müasir Rusiya cəmiyyətində ali təhsilin humanistləşdirilməsinin vəziyyəti və perspektivləri" adlanan ikinci fəsli 2 yarımfəsildən ibarətdir. Bu fəslə "Təhsil sahəsinin təkmilləşdirilməsi sosial problem kimi. Müasir Rusiya ali təhsilində vəziyyət" və "Rusiyada ali təhsilin humanistləşdirilməsinin əsas istiqamətləri" yarımfəsilləri daxildir.

A.L. Çernitskaya öz tədqiqatı ilə bağlı müdafiəyə aşağıdakı müddəaları çıxarmışdır:

1. Ali təhsilin humanistləşdirilməsi şəxsiyyətin anadangəlmə mahiyyətini həyata keçirən çoxsəviyyəli sosiomədəni proses olub insanın və cəmiyyətin mental, arxetipik səciyyəsinə əsaslanır və təhsili müasir humanist məzmunla zənginləşdirir, humanist dunyagörüşünün əsaslarını formalaşdırır.

2. Ali təhsilin humanistləşdirilməsi bir sıra çox mühüm funksiyaları, o cümlədən dünyagörüşü, aksioloji, idraki, şəxsi özünüidentifikasiya, intellektual və mədəni inkişaf kimi prinsipləri yerinə yetirir.

3. Ali təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması proseslərinin nisbəti göstərir ki, humanitar insanla bağlı olan bu və ya digər sahəyə, bu və ya digər proseslərin və hadisələrin məzmununa; humanistli isə, bu məzmunun müəyyən meyarlarla şərtlənən keyfiyyətini müəyyən edir. Təhsilin humanitarlaşdırılması tədris planında müəyyən fənlərin mövcudluğunu şərtləndirir; təhsilin humanistləşdirilməsi isə, təlim prosesinin tamlığını və tədris fənlərinin keyfiyyətini, yanaşılmaları və zəruri cəhətlərini nəzərdə tutur.

4. Ali təhsilin humanistləşdirilməsinin mahiyyətinin, quruluşunun, funksiyalarının, təhsil sisteminin islahatı sahəsinin sənədlərinin və materiallarının sosial-fəlsəfi təhlili ali təhsilin humanistləşdirilməsi sahəsinin qiymətləndirilməsinə imkan verir (6).

Y.V. Çekunovun namizədlik dissertasiyası (7) təhsilin humanistləşdirilməsi şəraitində tələbələrin vətənpərvərlik tərbiyəsinin pedaqoji şərtlərinə həsr edilmişdir. Dissertasiyada iki fəsildən ibarətdir: 1. Təhsilin humanistləşdirilməsi şəraitində tələbələrin vətənpərvərlik tərbiyəsinin nəzəri-metodoloji əsasları. 2. Təhsilin humanistləşdirilməsi şəraitində tələbələrin vətənpərvərlik tərbiyəsinin təcrübi-eksperimental tədqiqi (7).

"Təhsilin humanistləşdirilməsi şəraitində tələbələrin vətənpərvərlik tərbiyəsinin nəzəri-metodoloji əsasları" fəslində aşağıdakı məsələlər araşdırılır: ali təhsildə vətənpərvərlik tərbiyəsi pedaqoji problem kimi; "vətənpərvərlik" və "vətənpərvərlik tərbiyəsi" anlayışlarının mahiyyəti və məzmunu; tələbələrin vətənpərvərlik tərbiyəsi prosesində təhsilin humanistləşdirilməsinin funksional imkanları (7).

Dissertasiyanın II fəslində aşağıdakı məsələlər nəzərdə tutulur: ali təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsinin təşkilatı aspektləri; ali təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsinin pedaqoji şərtləri; təcrübi-eksperimental işin nəticələri (7).

L.V. Maskalenko "Müasir kulturoloji təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması" (8), N.Y. Maksimova "Təhsilin humanistləşdirilməsi sosiomədəni proses kimi: fəlsəfi əsaslar" (9); A.B. Kasayeva "Təhsilin humanistləşdirilməsi müasir cəmiyyətdə sosial münasibətlərin formalaşması amili kimi" (10); S.İ. Vostroknutov "Ali təhsil müəssisəsinin humanitar mühitinin formalaşdırılmasının pedaqoji əsasları" (11); N.A. Rıbaçuk "Fiziki tərbiyənin humanistləşdirilməsinin pedaqoji şərtləri" (12) mövzularında dissertasiyalar müdafiə etmişlər.

Beləliklə, araşdırmalardan görünür ki, istər respublikamızda, istərsə də MDB məkanına daxil olan respublikalarda aparılan bəzi tədqiqatlar təhsilin humanistləşdirilməsi məsələsinə həsr olunsa da, təhsilin humanistləşdirilməsi şəraitində tələbələrin mənəvi inkişafı məsələlərini əhatə etmir. Bu, həmin istiqamətdə tədqiqatın aparılmasını zərurətə çevirir.

**Problemin aktuallığı.** Təhsilin humanistləşdirilməsi və tələbələrin mənəvi inkişafı məsələlərinin tədqiqata cəlb edilməsi yeni pedaqoji təfəkkür şəraitində öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Təhsilin humanistləşdirilməsi və tələbələrin mənəvi inkişafı məsələlərinin hansı səviyyədə araşdırıldığını öyrənmək üçün mövcud ədəbiyyat nəzərdən keçirilərək təhlil olunmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Məqalə təhsilin, o cümlədən tərbiyə prosesinin və ali təhsilin humanistləşdirilməsi problemləri üzrə tədqiqat aparan doktorant və dissertantlara, gənc tədqiqatçılara öz köməyini göstərəcəkdir.

## Ədəbiyyat:

1. A.O. Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 s.

2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

3. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

4. L.X. Əliyeva. Təhsilin demokratikləşdirilməsi pedaqoji kadrların hazırlanmasının mühüm prinsipi kimi" (ali pedaqoji məktəblərin bakalavr pilləsinin materialları əsasında): Ped.ü.fəls.dok. ...dis. Bakı, 2012.

5. G.O. Həsənova. Təhsilin humanistləşdirilməsi pedaqoji kadr hazırlığının mühüm prinsipi kimi: Ped.ü.fəls.dok. ...dis. Bakı, 2007.

6. А.Л. Черницкая. Гуманизация высшего образования: сущность и перспективы развития: Дис. …канд.филос.наук. М., 2008.

7. Е.В. Чекунов. Педагогические условия патриотического воспитания студентов вузов в условиях гуманизации образования: Дис. …канд.пед.наук.

Сочи, 2006.

8. Л.В. Москаленко. Гуманизация и гуманитаризация современного культурологического образования: Школьная образовательная деятельность: Дис. …канд. культурол.наук. Краснодар, 2001.

9. Н.Ю.Максимова. Гуманизация образования как социокультурный процесс: Философские аспекты: Дис. …канд.филос.наук. М., 2003.

10. А.Б. Касаева. Гуманитаризация образования как фактор формирования социальных отношений в современном обществе: Дис. …филос.пед.наук. Нальчик, 2004.

11. С.И. Вострокнутов. Педагогические основы формирования гуманитарной среды высшего учебного заведения: Дис. …докт.пед.наук. Ярославль, 2009.

12. Н.А. Рыбачук. Педагогические условия гуманизации физического воспитания студентов: Дис. …канд.пед.наук. Краснодар, 1999.

**E-mail:** abdullayev_ayxan@list.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub:** 28.12.2018